# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 19 (1147) 30 yanvar - 1 fevral 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# BİZ ONLARA BÖYÜK ÜMİDLƏR BƏSLƏYİRİK

**Füzuli rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı prezident İlham Əliyevin sərəncamları ilə dəfələrlə külli miqdarda pul vəsaiti ayrılıb. Təbii ki, bu vəsaitdən də zaman-zaman rayonun yenidən qurulması, bərpa edilməsi və tikilməsi üçün düzgün istifadə edilib. Rayonda bir-birindən gözəl sosial obyektlər, məktəblər, xəstəxanalar, parklar və xiyabanlar inşa edilib. İşğaldan azad olunmuş 22 kənddə və Horadiz şəhərində misli görünməmiş abadlıq işləri həyata keçirilib.**

Füzulidə təhsilin inkişafına, onun maddi-texniki bazasının möhkəmlənməsi həmişə dövlət tərəfindən diqqət mərkəzində saxlanılır.

### *46 nömrəli tam orta məktəbin uğurları böyükdür*

Füzulidə qabaqcıl təhsil müəssisələri kifayət qədərdir. Və bu məktəblərdə birmənalı olaraq şagirdlərin dərin bilik almasına, onların vətənpərvərlik ruhunda tərbiyə edilməsinə xüsusi diqqət yetirilir. 46 nömrəli tam orta məktəbin ən gözəl ənənələrindən biri





> **"...Azərbaycan xalqının çox zəngin mədəniyyəti, tarixi vardır. Biz haqlı olaraq öz mədəniyyətimizlə fəxr edirik. Bu gün Azərbaycan dünyada öz mədəniyyəti, musiqisi, tarixi ilə tanınan bir ölkədir. Dünyanın müxtəlif yerlərində Azərbaycan günləri keçirilir. Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu artıq bütün dünya bilir. Bakıda, eyni zamanda, bölgələrdə, müxtəlif mədəni tədbirlər, müsabiqələr keçirilir. Azərbaycan cəmiyyəti həmişə mədəniyyətə çox bağlı olub və bu gün müstəqil Azərbaycan dövləti çox güclü əsaslar - tarixi, mədəni əsaslar, mənəvi dəyərlər üzərində qurulubdur".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

### *Bu sahəyə önəm verilib*

Bayaq dediyimiz kimi, Füzulinin yenidən tikilməsi və qurulması üçün çox möhtəşəm abadlıq işləri görülüb. Biz bunları sadalasaq onda uzun bir siyahı alınar. Sadəcə olaraq kimsə Füzuliyə yolu düşsə, Horadizə gəlsə, onun kəndlərinə baş çəksə, bu abadlıq işlərinin şahidi olar. Ölkə prezidenti tərəfindən Füzulidə təhsilin inkişafına da böyük diqqət yetirilib. Belə ki, cənab prezident tərəfindən ayrılmış vəsaitin bir hissəsi rayonun işğaldan azad olunmuş məktəblərinin yenidən əsaslı surətdə qurulmasına, bərpa edilməsinə və tikilməsinə xərclənib. Son bir neçə ildə müasir tələblərə cavab verən və hər cür şəraiti olan neçə-neçə tam orta məktəb inşa edilib. Elə onlardan biri Heydər Əliyev Fondunun vəsaiti hesabına inşa edilmiş məktəbi nümunə göstərmək olar. Amma məktəb tikintisi bununla da kifayətlənməyib.

Axır vaxtlar rayonun bir neçə kəndində, xüsusən Əhmədbəyli kəndində müasir tələblərə cavab verən musiqi təmayüllü internat məktəbi inşa edilib. Bütün bunlar onu göstərir ki, isə hər il buranı bitirmiş məzunların bir çoxunun ali məktəblərə yüksək balla qəbul olmasıdır. Təbii ki, məktəbdə təlim-tərbiyənin və tədrisin düzgün qurulması nəticəsində müsbət irəliləyişlərə nail olmaq mümkün olub. Bu da təsadüfi deyildir. Məktəbin direktoru Gülnaz Süleyman qızı Məmmədova bildirir ki, bizim pedaqoji kollektivdə çox sağlam iqlim mövcuddur. Yeni şagird-müəllim və valideyn münasibətləri elə bir səviyyədə qurulub ki, biz də istədiyimiz nəticəni əldə edə bilirik. Məhz uğurlarımızın ən böyük və yetərli səbəbi də məktəbdə təhsilin müasir tələblərə uyğun qurulması və pedaqoji kadrların bu işə məsuliyyətlə cəlb edilməsidir.

### *Direktor özünə, şagirdlərinə və müəllimlərinə güvənir*

Məktəbin direktoru Gülnaz Məmmədova çox savadlı, təcrübəli və tələbkar bir rəhbərdir. İlk növbədə özünə qarşı çox tələbkardır. Bu isə təsadüfi deyildir.

Gülnaz xanım deyir ki, müəllim ilk növbədə özünə qarşı tələbkar olmalıdır və sonra da başqasından nəyisə tələb etməyə mənəvi haqqı olmalıdır. Əgər özün intizamlı deyilsənsə sən hansı haqla başqasından nəyisə tələb edəcəksən.

Məktəbimiz 1994-cü ildən fəaliyyət göstərir. Kollektivimizdə 27 müəllim var və onlar bu gün 112 şagirdin təlim-tərbiyəsi ilə məşğuldurlar. Məktəbimizin pedaqoji kollektivi təhsil sahəsində aparılan islahatları daim izləyir və bu islahatların həyata keçirilməsi üçün öz üzərlərində ciddi çalışırlar. "Azərbaycan-2020 - Gələcəyə baxış" konsepsiyasının təhsil sahəsində qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi bizim hər birimizin ümdə vəzifəsidir.

Biz ona çalışırıq ki, dövlətin təhsil işçiləri qarşısında qoyduğu tələbləri və vəzifələri uğurla həyata keçirək. Bu mənada məktəbimizin fizika müəllimi, elmlər namizədi Aygün Kazımova, coğrafiya müəllimi, elmlər namizədi Arzu Hümmətova, kimya müəllimi Solmaz Məmmədova, riyaziyyat müəllimi Fəridə Şirinova şagirdlərin əsl sevimlisidirlər.

Yəni onlar cəmiyyət üçün savadlı, ziyalı gənclərin hazırlanmasında əllərindən gələni əsirgəmirlər.

### *Məzunlarımız üz ağardır*

Hər bir məktəbin şərəfi və şanı onun məzunlarıdır. Yəni məzun orta məktəbi savadlı bitirirsə və istədiyi ali məktəbə qəbul olursa, elə bu məktəbin özünün böyük sevinci və uğuru deməkdir. Gülnaz Məmmədova bizimlə bu mövzuda söhbət edərkən məktəbi bitirən məzunlar barəsində qürurla danışdı. O qədər həvəslə, maraqla söhbət edirdi ki, az qalırdı ürəyi sevincindən ağzından çıxsın. O bildirdi ki, ötən il ali məktəbə 11 məzun sənəd verib. Onların 8-i ali, 2-si isə Asəf Zeynallı adına musiqi məktəbinə daxil olublar. Əlbəttə, bu bizi sevindirməyə bilməz. Ən azından ona görə ki, 11 il üzərlərində yarpaq kimi əsdiyimiz şagirdlərimiz çəkdiyimiz zəhməti itirməyiblər. Məzunlarımızdan biri - Leyla Gürşad qızı İbrahimli 654 bal toplayaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub. Biz özü də həmişə Leylanın olimpiadalarda fərqləndiyinin şahidi olmuşuq. Məhz bu cür məzunlarımız zaman-zaman çəkdikləri əziyyətin bəhrəsini görürlər və öz əməlləri ilə digər məzunlara da nümunə sayılırlar.

**Sonda onu demək istəyirəm ki, məktəbimizə həmişə rayon icra hakimiyyətinin başçısı Alı Alıyev və təhsil şöbəsinin müdiri tərəfindən xüsusi diqqət göstərilir. Belə ki, məktəbimiz hər cür maddi-texniki avadanlıqla təchiz edilib, əlaçı şagirdlərimiz və məzunlarımız təhsildə fərqləndiyinə görə rayon icra hakimiyyətinin mükafatları ilə qiymətləndirilib. Təbii ki, bu da bizim məsuliyyət hissimizi artırır və məktəbdə təhsilin müasir tələblər səviyyəsində qurulması üçün əlimizdən nə gəlirsə onu etməyə sövq edir.**

**Faiq QİSMƏTOĞLU**